# Qızılca xəstəliyindən uşaqlarınızı qoruyun

Azərbaycanda qızılca hadisəsi bu ilin aprel ayından başlamış, noyabr və dekabr aylarından bu infeksiyanın uşaqlar arasında daha geniş yayılması halları müşahidə olunmuşdur.

Bu xəstəliyin yayılmasının əsas səbəblərindən biri kimi pandemiya dövründə uşaqlar arasında profilaktik peyvənd işinin lazimi səviyyədə aparılmaması, bu dövrdə bəzi valideyinlərin öz uşaqlarını təqvim üzrə peyvənd olunması üçün tibb müəssisələrinə gətirməkdən imtina etməsi halları olmuşdur.

Qonşu Rusiya və Türkiyədən gətirilmə qızılca hadisələri ilə əlaqədar olaraq Respublikamızda da, bu xəstəliyin yayılması halları baş vermişdir. Qızılcaya yoluxmuş xəstələrin demək olar ki, əksəriyyəti profilaktik peyvənd təqviminə əsasən peyvənd almayan uşaqlar olmuşdur.

Qızılca xəstəliyi yüksək yoluxuculuğa malik olan, hava-damcı ilə yayılan kəskin yoluxucu virus xəstəliyidir.

Qızılcanın ilkin əlamətlərindən biri virusa yoluxduqdan təxminən 10 - 12 gün sonra yaranan və 4 gündən 7 günədək davam edən temperaturun nəzərəcarpacaq, (38,5 - 39) dərəcədə yüksəlməsi sayılır.

Bu dövrdə zökəm, öskürək, gözlərdə qızartı, həmcinin agız boşluğunda kicik ağ ləkələr aşkar oluna bilər. Bir necə gün sonra adətən üzdə və boyunun yuxarı hissəsində səpkilər yaranır.

Təxminən 2 sutka ərzində səpkilər bütün bədəndə; əl və ayaqda da yaranır. Səpkinin yaranmasından 4 gün öncə və 4 gün sonra xəstə insan yoluxdurucu olur. Səpkilər orta hesabla virusa yoluxduqdan 14 gün sonra (7 gündən 18



günədək) yaranır.

Qızılcadan ölüm hallarının coxu bu xəstəliklə bağlı yaranan ağırlaşmalar nəticəsində baş verir. Ən təhlükəli ağırlaşmalara korluq, ensefalit, kəskin diareya, pnevmoniya, qulaq infeksiyaları aid edilir.

Qızılcaya qarşı immuniteti olmayan, vaxtında peyvənd təqviminə uyğun vaksinasiya olunmayan hər bir şəxs ilə yoluxa bilər.

Qızılca xəstəliyinin müalicəsi əsasən ev şəraitində aparılır. Xəstənin və onun istifadə etdiyi əşyaları sağlam şəxslərdən təcrid etmək lazımdır. Xəstəxanaya yalnız kicik yaşlı uşaqları və xəstəliyi ağır keçirən (yüksək hərarətli) şəxslər yerləşdirilir.

Xəstənin olduğu otaq mütəmadi olaraq nəm üsulla silinməli, havası tez-tez dəyişdirilməlidir.

Uşağın əl-üzünü tez-tez yumaq, gündə bir-iki dəfə gözlərini yumaq, hər qida qəbulundan sonra isə ağzı yaxalamaq, xəstəni soyuqdan qorumaq lazımdır. Xəstələrə bol maye, sulu və yüngül yeməklər vermək məsləhətdir. Uşaqları qızılcadan zəmanətli qorumaq məqsədi ilə 2 doza qızılca, parotit, məxmərək (QPM) peyvəndi vurulmalıdır.

Milli peyvənd təqviminə uyğun olaraq bu peyvəndin 1-ci dozası 12 aylığında, 2-ci dozası isə 6 yaşında vurulur.

Qəbələ rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin əmr və təlimatlarına uyğun olaraq qızılca xəstəliyinə qarşı profilaktik tədbirlər aparılır.

Belə ki, dekabr ayının əvvəlindən Səhiyyə Nazirliyinin İnnovasiya və Təchizat Mərkəzindən rayona əlavə olaraq 1300 doza QPM peyvəndi gətirilmişdir. Bu peyvənd materialı peyvənd işi ilə məşğul olan Ailə Sağlamlıq Mərkəzi şöbələrinə, kənd həkim və tibb məntəqələrinə paylanmışdır. Mərkəz tərəfindən əlavə olaraq 500 doza QPM peyvəndinin alınması üçün sifariş verilmişdir.

Qızılca xəstəliyi aşkar olunmuş ümumtəhsil məktəblərində xəstəlik qeydə alınan siniflər müşahidəyə götürülmüş, bu məktəblərdə geniş dezinfeksiya işləri aparılmışdır. Gecikmiş və ağırlaşmış xəstələr stasionar müalicəyə cəlb olunmuşdur.

Hər hansı səbəbdən qızılca, parotit və məxmərək əleyhinə QPM vaksini ilə immunizasiyadan kənar qalmış uşaqların məktəblər üzrə siyahısı hazırlanmış, onların immunizasiyaya cəlb olunması sahəsində iş aparılır.

Uşaqlar arasında aparılan planlı və plandan kənar QPM peyvəndi haqqında, xəstəlik aşkar olunmuş mütəşəkkil kollektivlərdə aparılan profilaktik tədbirlər haqqında gündəlik olaraq Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə məlumat verilir.

Lakin hələ də bəzi valideyinlər uşaqlar arasında aparılan peyvənd işinə laqeyidlik göstərir. Öz uşaqlarının peyvənd olunmasına maraq göstərmir və yaxud imtina edir. Bu valideyinlər anlamalıdır ki, o nəinki öz uşaqlarının, həmcinin onun uşaqlarının təlim-tərbiyə və yaxud təhsil aldığı mütəşəkkil kollektivlər də, bu xəstəliyin baş verməsinə və yayılmasına təhlükə yaradır.

Ümumtəhsil məktəblərinin direktorları, uşaq bağçalarının müdirləri, digər uşaq müəssisə rəhbərləri, uşaq müəssisələrində peyvənddən kənar qalmış uşaqların peyvəndə cəlb olunması işində tibb işcilərinə lazimi köməklik göstərilməlidir.

Bir daha hörmətli valideynlərə xatırladırıq: - Uşaqları bu ağır xəstəlikdən qorumaq üçün onların vaxtında peyvənd olunması vacibdir.

**Atif MƏMMƏDOV,**
**rayon GEM-nin sanitariya-gigiyena şöbəsinin müdiri.**

# 2023-cü ilin yanvar-noyabr aylarında Qəbələ rayonunda fəaliyyət göstərən turizm və kənd təsərrüfatı sahələri haqqında rayon statistika idarəsinin MƏLUMATI

**Turizm**

Qəbələ rayonu ərazisində cari ilin yanvar-noyabr aylarında 18 mehmanxana və mehmanxana tipli müəssisədən15-şi fəaliyyət gös-




tərmişdir. Rayon ərazisində mövcud olan 18 otel və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu 2496 nömrə olduğu halda, fəaliyyət göstərən 15 otel və mehmanxana tipli müəssisələrdən 9657 nömrədən istifadə edilmişdir. 2023-cü ilin yanvar-noyabr aylarında otel və mehmanxanalarda 22872 çarpayı- yerdən istifadə olunmuşdur. Bir gün qalmaq üçün orta qiymət 106,6 manat təşkil etmiş və turistlərin qalma müddəti 1-2 gün olmuşdur. Otel və mehmanxana tipli müəssisələrə 73220 nəfər yerləşdirilmiş, onların 35073 nəfəri və ya 47,9 faizi Azərbaycan, 38147 nəfəri və ya 52,1 faizi xarici ölkə vətəndaşları olmuşdur.

Otel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı əvvəlki ilin müvafiq dövrü illə müqayisədə 17531 nəfər və ya 19,3 faiz azalmışdır. 2023-cü ilın yanvar-noyabr aylarında yerli turistlərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 8812 nəfər və ya 20,1 faiz azalmış, əcnəbi turistlərin sayında isə 8719 nəfər və ya 18,6 faiz azalma qeydə alınmışdır.

2023-cü ilin yanvar-noyabr aylarında rayona gələn əcnəbi turistlər arasında Səudiyyə Ərəbistanı



vətəndaşları üstünlük təşkil edərək 11421 nəfər olmuşdur, bununla yanaşı Hindistandan 7648 nəfər, Birləşmiş Ərəb Əmirliyindən 5842 nəfər, Küveytdən 2711 nəfər, Israildən 1630 nəfər, Pakistandan 1194 nəfər, Rusiyadan 1012 nəfər, Qətərdən 824 nəfər, Omandan 672 nəfər, Türkiyədən 393 nəfər, Bəhreyndən 392 nəfər, Qazaxıstandan 250 nəfər, ABŞ-dan 233 nəfər, 3925 nəfəri isə digər ölkələrdən turist gəlmişdir.

2023-cü ilin noyabr ayında turizm obyektlərində işçilərin orta sayı 878 olmuşdur. Onlardan 197 nəfərini qadınlar, 59 nəfərini turizm və otelçilik üzrə təhsil alan mütəxəssislər, 17 nəfərini isə əcnəbi işçilər təşkil edib.

**Kənd təsərrüfatı**

2023-cü ilin yanvar-dekabr aylarında rayonda kənd təsərrüfatı müəssisələri, ailə kəndli və ev təsərrüfatlarında 648,1 ton diri çəkidə ət, 40342,9 ton süd, 22978 min ədəd yumurta 240,5 ton yun istehsal olunmuşdu. 2024-ci ilin yanvar ayının 1-i vəziyyətinə rayonun təsərrüfatlarında 37032 baş iri buynuzlu mal-qara, o cümlədən 18761 baş inək və camış, 122348 baş qoyun və keçi, 770 baş donuz mövcud olmuşdur.

Rayonda mal-qara arasında süni mayalanma işinin təşkili və onun genişləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdü. 2023-cü ilin yanvar-dekabr aylarında 9310 baş heyvan süni yolla mayalanmış və süni yolla mayalanmış heyvanlardan 5758 baş bala alınmışdır.

# Qanvermə aksiyası keçirilmişdir

10 yanvar 2024-cü il tarixdə Azərbaycan Respublikası Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Talassemiyasız həyat naminə” layihəsi çərçivəsində “Milli Hematologiya və Transfuziologiya Mərkəzi” Publik Hüquqi Şəxs tərəfindən qanvermə aksiyası keçirilmişdir. Qəbələ Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsində



keçirilən aksiyada rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə, təşkilatların kollektivləri və şəhər sakinləri iştirak etmişlər.

# 11-40 yaşarası insanlar qizilcaya qarsi peyvend olunmalidir

Ölkə ərazisində qeydə alınan yoluxma hadisələrinin və epidemioloji vəziyyətin təhlili göstərir ki, 10 yaşa qədər uşaqlarla yanaşı, 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları baş verir.

Səhiyyə Nazirliyi tərəfindən əhalinin sağlamlığının qorunması və yoluxmaların qarşısının alınması məqsədilə, vaxtında qızılcaya qarşı vaksinasiyadan kənarda qalan 11- 40 yaşlı əhali arasında vaksinasiya tədbirlərinin aparılması üçün müvafiq vaksin preparatları ölkəyə idxal edilib. Hazırda immunizasiya tədbirlərinin təşkili üzrə işlər görülür.

Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan Profilaktik peyvəndlər təqviminə əsasən və qızılcaya yoluxmalara görə hazırda həssas hesab edilən 11- 40 yaşlı şəxslərin qızılca infeksiyasına qarşı peyvənd olunmasını vacib hesab edir.

Qeyd olunan əhali qruplarının vaksinasiyası üçün yaşayış yerləri üzrə uşaq və yaşlı qrupa aid əhaliyə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət edilməsi tövsiyə olunur. 11-40 yaşı əhali qruplarının yoluxmadan müdafiəsi üçün 1 dəfə vaksinasiya olunması kifayət edir”.